## Xalq yazıçısı Elçinin Seyran Səxavətə teleqramı



Əzizim Seyran,

Səni, müasir ədəbiyyatımızın görkəmli nümayəndəsini 70 illiyin münasibəti ilə ürəkdən təbrik edirəm. Bu cümləni yazıram və buradakı 70 mənim üçün inanılmaz, heyratamiz bir rəqəmə çevrilir. Gözlərimin qabağına istedadlı, mehriban, eyni zamanda dəliqanlı gənc Seyran gəlir və bu gənc Seyran 70-i haqlasa da yenə həmin gənclik istedadı ilə, həmin gənclik enerjisi ilə yazıb-yaradır. Romanları, hekayələri ilə yeni-yeni uğurlar əldə edir, ədəbiyyatımızı zənginləşdirir.

Səni bir daha ürəkdən təbrik edir, can sağlığı və uzun ömür arzulayıram. İstedad isə həmişə səninlə bir yerdədir.

*Hörmətlə, Elçin.*

**Azərbaycan Respublikası baş nazirinin müavini, Xalq yazıçısı**

# Yəhudi əlifbasıyla yazılan nekroloq



■ Nizaməddin Şəmsizadə

Onun dediyi bir cümləni on ildir təkrarlayıram, yeri gələndə ədəbi məclislərdə misal çəkirəm: xalq birləşəndə, yazıçı təklənəndə güclü olur! Və böyük türk Mövlana Cəlaləddin Ruminin fikrini xatırlayıram onun bu cümləsi diliмə gələndə: Çiy idim, yandım bişdim.

Məncə bu iki fikir Seyran Səxavəti milli bir yazıçı kimi dəqiq xarakterizə edir: O yanıb bişdi, təklənib gücləndi. Bunu 70 sənəlik həyatı boyu yanıb Seyran - hamımız kimi özgə qapılarında (erməni və rus həyətlərində) kirayəşinlikdə keçib bu yetmiş ilin bir hissəsi, çörəyi qələmi ilə qazanıb ağ kağızla üz-üzə oturmağın şərəfini və əzabını yaşayıb, həqiqətin və cəsarətin oduna düşüb, yanıb bişib. Təkliyin və qürurun əzabını yaşayıb, sınmayıb. İstedadı, şəxsiyyəti və zəhməti ona dayaq olub, nəticədə Azərbaycanın güclü ziyalısına, qüdrətli yazıçısına çevrilib.

S.Səxavət ədəbiyyata ”külli-Qarabağın” abi-həyatını əks etdirməklə poeziya ilə - şair kimi gəlib. S. Səxavətə əsl yazıçı üçün çox vacib bir neçə şey qismət oldu: ilahi vergisi olan istedad, istedadın və ilhamın azadlığını boğan ictimai həyat, şəxsiyyətin özündən də gizli mənəvi-psixoloji imkanlarını, xüsusi müqavimətlə aşkara çıxaran tənhalıq mühiti... Təzyiq müqavimeti gücləndirir, müqavimət iradəni möhkəmlədir.

1946-cı ilin Novruz bayramında, Füzuli bölgəsinin Yağlıvənd obasında ziyalı ailəsində fani dünyaya gələn Seyran hamı kimi icbari orta təhsilini bitirən vaxtda - 1962-ci ildə ”Qızıl Araz” qəzetində ilk şeirini çap etdirib. ADU-nun şərqşünaslıq fakültəsini bitirib, əsgəri borcunu yerinə yetirib, ”Ədəbiyyat və incəsənət” qəzetində, ”Ulduz” jurnalında ədəbi işçi, İranda tərcüməçi işləyib.

”Adalar” adlı ilk şeir kitabı ADU-nun V kurs tələbəsi ikən çap olunub, ”Mənim palnetim”adlı ikinci şeir kitabı 1977-ci ildə işıq üzü görüb. Orijinal şair kimi ədəbi ictimaiyyətin və tənqidin diqqət mərkəzində olub, çoxəsrlik poetik ənənələri olan Azərbaycan ədəbiyyatına 70-ci illərin istedadlı şairi kimi daxil olub. Onun ilk şeirləri, xüsusən ”Utancaq məhəbbət”, ”Bizim arx”, ”Ürək”, ”Sevirəm”, ”Balam nə vaxt iməklər”, ”İlk məhəbbət - son məhəbbət” o zaman metafora zənginliyi, poetik forma dəqiqliyi, gözlənilməz obrazları ilə oxucu rəğbətini qazandı:

***Dənizdə yaşayar bütün ömrünü,***
***Öləndə sahildə ölər gəmilər.***

Başqa bir şeirində isə şair bənzəməsi daha gözlənilməz, adi düşüncə baxımından ehkamlarıma uyğun deyil:

***İnsanlar anadan doğulublar,***
***Yollar insanların ayaqlarından.***

Bu əslində semantik çarpazlaşmadır: ”ayaqdan doğulmuş yol” mümkün olmayan anlayışlar arasında harmoniyadan yaranıb. Vəhdəti-vücud təliminə görə (İbn Ərəbi) küll cüzdə, yer kürəsi qum dənəsində əksini tapır. Dənizin suyunun şor olduğunu təyin etmək üçün bütün dənizi içmək lazım deyil, bir damla bəs edər. ”Zərrə mənəm, günəş mənəm, Pənc ilə çarü şeş mənəm” - ”Ənəlhəqq” - mənəm Allah deyirdi hürufi şair və filosof Nəsimi. Bədii yaradıcılıq da belədir, şair bir misrasından tanınar. S.Səxavət kimi:

***Sən nə istəyirdin, nələr itirdin?***
***Qorxma kül olmaqdan, yan, məhəbbətim.***
***Sən mənim başıma nələr gətirdin,***
***Ay ilk məhəbbətim, son məhəbbətim.***

da, nəsr yazanda da Seyran elə həmin dildən, həmin ürəkdən istifadə edir. Onun yazdıqlarının hamısı ”dünyanın o baxan tərəfindən görünən hissəsidir”. Başqa sözlə ”Dünya necədirsə, bunu hamı bilir, mən öz dünyamı çəkirəm” (Pikasso) ”Ədəbiyyata şair kimi gəlmiş, yazıçı kimi şöhrətlənmiş, sadə geyimli, ağ köynəkli, mərd, təvazökar, türk sifətli... Seyran Səxavət vətəndaş yanıqlı bir sənətkardır.” (X.R.Ulutürk) İstiqlal şairi X.R.Ulutürkün bu sözlərini oxuyub Seyran səxavətin işıqlı portretini çəkmək olar.

Bədii ədəbiyyatın böyüklüyü həqiqətin tutumu ilə ölçülür. S.Səxavətin ”Boynu əyri kişi”, ”İt intervüsü”, ”Dəyirmanın boğazında”, ”Cəhənnəm”, ”Persona non qrata” hekayələri, ”Sanitariya” povesti, ”Yəhudi əlifbası”, ”Nekroloq” romanları gerçək həqiqətləri istedad, cəsarət və vətəndaş yanğısı ilə əks etdirən əsərləridir.

S.Səxavətin gənc tədqiqatçısı Xəyalə Zərrabqızı yazır: ”Həqiqətləri deməyin yasaq olunduğu, yarımhəqiqətlərin və yalanların üstündə inşa olunan bir dünyada Seyran Səxavət şəxsiyyəti və yaradıcılığı arasındakı bütövlüyü, tamlığı qoruya bildi”. Müasir dövrün həqiqətlərini S.Səxavət olduqca dolğun və cəsarətlə təsvir edib. Onun yazıçı cəsarəti şəxsiyyətinə və istedadına güvənir, bu iki mənbədən güc alır. ”S.Səxavət bizim ədəbi nəsildə zamana yaxa verməyən bir oğuldur”

Yaxud, daha gözlənilməz bir poetik tapıntı:

***Sən bir soyuq ulduz, mən gözləri nəm,***
***Eybi yox, mənimçin həmişə varsan.***
***Sıxma ürəyimi, ürək cəhənnəm,***
***Axı sən ordasan, sən sıxılarsan...***

Bu misralar sevən insan ürəyinin sözlə ifadə olunmuş nəğməsidir, dua, səmimiyyəti var bu sözlərdə... məhz belə şairləri və şeirləri dinləyəndə böyük tənqidçi V.Belinskinin fikri yada düşür: ”Şair sözü yüksək və müqəddəs bir sözdür. Bu sözdə ölməyən, əbədi şöhrət var”. S.Səxavət həqiqi şairdir. Onun yaradıcılığı sübut edir ki nəsrdə də şair olmaq - əbədi şöhrət məqamına yüksəlmək mümkündür. Şairlik zamanı (R. Rövşən) S. Səxavət zamana yaxa vermədi, zamanın yaxasından tutdu, öz həqiqətini tələb etdi, zamanla mübarizədə qalib gəldi, zaman ona xidmət elədi və onu təsdiq etdi.

Şəxsiyyəti onun mənsub olduğu zaman yetişdirmir, o öz zəmanəsinə sığışmır, onu yaxından görmək və dərk etmək mümkün deyil. Böyük alimlər, yazıçılar, mütəfəkkirlər öz dövrü və müasirləri tərəfindən dərk olunmur. Onlar hamı kimi olmamağın əzabını çəkir. Bu əzabdan ucalığın tənhalığından, qəzavü-qədərin gətirdiyi tale dərdindən doğulur ədəbi şəxsiyyət. ”Dərd şairliyin sərmayəsidir” deyirdi Mövlana Məhəmməd Füzuli. Keçmişdə ancaq adamın canını alırdılar, indi isə genetik kodunu dəyişirlər, beynini tərsinə işlədirlər.

”Ölüm ölənlər üçün faciə deyil” deyirdi böyük mütəfəkkir Karl Maks. Dünyada ən böyük faciə əhliləşməkdir. Zorun, ədalətsizliyin qanunu əvəz etdiyi cəmiyyətdə qaragüruh meydangir olur, əhliləşə bilməyənləri ağır cəza gözləyir. ”Məsləkim tərcüməyi-halımdır” - deyirdi A.Səhhət Seyranın da əsərləri bir məsləkdən yaranıb, onun tərcümeyi-halının tragik obrazıdır. ”Susun ki əsərləriniz danışsın” - budur Seyranın yazıçı məramı. ”Adam təkcə ölümə yaltaqlana bilmir, yoxsa yer üzündə adam əlindən tərpənmək olmazdı. Ət-ətə dayanardınız sonra da başlayardınız bir-birinizi yemeye” - bu fikri S.Səxavətlinin ən yaxşı simvolik fantasmaqorik fəlsəfi psixoloji ”İt intervüsü” (1998) hekayəsində ondan intervü almağa gələn gənc jurnalistə İt deyir.

Bizim ədəbiyyatda ”İt intervüsü” qədər sarkastik hekayəyə rast gəlməmişəm. Onu ancaq rus satirik Saltıkov-Şedrinin əsərləri ilə qiyaslamaq olar.

Mənim üçün dünyada ən darıxdırıcı yer zooparkdı, sirkdi. Heyvanı əhliləşdirib qəfəsə salır və tamaşaya çevrirlər. İnsan əhliləşmiş ayının, canavarın, şirin qəmgin gözlərindəki ümidsiz kədərə baxmaq dəhşətlidir. Eləcə də sirkdə təlimçisi qızın əmri ilə oyun çıxarıb adamları əyləndirən heyvanlara... Bir sarkastik epizod: ”Gördüm ki, itin gözündəki kədərlə Qıllı Kişinin gözündəki kədər eynidir.. Ürəyimdən keçdi ki, bir güzgü olsaydı, mən də öz sifətimə baxardım. Ancaq köhnə qəbiristanlıqda güzgü nə gəzirdi - ölülər güzgüyə baxmırlar... Ölülərin bir ayrı güzgüsü var, özü də bədənnuma güzgüdü - bu, baş daşlarıdı”

Bu minvalla da S.Səxavəti əsərlərini ədəbiyyatın mən baxan tərəfindən təhlil və təqdir etmək olar. Onda qarşımızda müasir dövrün qüdrətli bir yazıçısının obrazı canlanaraq Və məlum olacaq ki, o, ”Yəhudi əlifbası” ilə təkcə bir cəmiyyətə yox, antimilliyə, anti bəşərə ”nekroloq” yazıb. Bizim ədəbiyyatda diri ikən ölülərə - diriləri diriltmək üçün yazılmış Mirzə Cəlil nümunəsi - ”Ölülər” var. Bu XX əsrin əvvəllərində baş vermişdi. XXI əsrin, III minilliyin diriləri üçün nekroloqu isə Seyran Səxavətli yazdı. Özü də bu nekroloq ənənəvi olaraq ərəb, kiril, türk əlifbaları ilə yox yəhudi əlifbası ilə yazıldı. Bu isə o deməkdi ki indiki dirilərə rəhmət yox, küfr düşür...

...70 yaşın, 70 ağrı-acın, yorğunluğun, tənhalığın mübarək, Seyran Səxavət...

